KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA İSLAM BANKÇILIĞININ ROLU

Aişə XƏLƏFOVA*

Xülasə: Məqalədə bir çox dünya ölkələri ilə yanaşı, ölkəmizdə də islam maliyyə sisteminə böyük maraq olmasında bəhs edilir .Son dövrlərdə daha çox diqqət mərkəzində olan İslam maliyyə sisteminin, habelə faizsiz bankçılığın tətbiqinin sahibkarlıq fəaliyyəti üzərində hansı təsirləri olduğu araşdırılmışdır. İslamda şəxsi mənafedən və materialist iqtisadiyyatın fərdiliyindən uzaqlaşaraq, kollektiv səmərəliliyin müasir konsepsiyası tövsiyə edilmişdir. Qərbin bəzi alimləri İslam bankçılığından istifadəni iqtisadi inkişaf üçün daha uyğun hesab edir. İslami prinsiplərə tabe olan iqtisadi sistemin hansı üstünlükləri var, onlardan necə səmərəli istifadə oluna bilər kimi sualların cavabları məqalədə ehtiva olunmuşdur. Bu tədqiqat ölkəmizdə islami bankçılığın mövcud vəziyyətini görməyə, sistemin çatışmazlıqlarını qiymətləndirməyə imkan verir. Azərbaycan Respublikasının qanunvericiliyinin bu sistemin tətbiqi üçün əlverişli olub olmaması, əlavələrin və dəyişikliklərin edilməsinin zəruriliyindən bəhs edilmişdir. Həmçinin məqalədə dövlət idarəçiliyində islam maliyyə sistemini tətbiq edən ölkələr bir model olaraq, nəzərdən keçirilmişdir. Bu sahənin iqtisadiyyatda mənimsənilməsinin sahibkarlıq,xüsusilə də kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafındakı müsbət nəticələrindən söhbət açılmışdır. Məqalə islam bankçılığının inkişafı ilə sahibkarlığa dəstək veriləcəyindən, dolayı yolla iqtisadi artımın təmin olunacağından bəhs edir. Bu sistemin tətbiqi üçün əlverişli şəraitin və potensialın olması da nəzərdən yayınmamışdır. O da qeyd edilir ki, islam maliyyəsinin gələcəyi təkcə ölkənin siyasi idarəedicilərindən deyil, əsasən, bütünlükdə əhalidən asılıdır. Qlobal böhrandan sonrakı dövrdə bu sahəyə maraq birmənalı şəkildə artmışdır. İslam maliyyəsinin son on ildəki innovasiya və inkişaf tempi sübut edir ki, bu sahə bütün dünyanın diqqət mərkəzindədir. Qeyd edilən həqiqətlər nəzərə alınaraq, bu sistemin KOS-ların inkişafındakı rolu qiymətləndirilmişdir.

Açar Sözlər: *İslam Maliyyəsi, Kiçik və Orta Sahibkarlıq, Faizsiz Bankçılıq, İslam Bankılığı.*

The Role of Islamic Banking ın the Development of Small and Medium Enterprises

Abstract: The article talks about the great interest in the Islamic financial system in our country as well as in many countries of the world. The effects of the application of the Islamic financial system and interest-free banking, which have been in the center of attention in recent times, on entrepreneurial activity have been investigated. A modern concept of collective efficiency has been recommended in Islam, moving away from self-interest and the individualism of a materialistic economy. Some scholars of the West consider the use of Islamic banking more suitable for economic development. Answers to questions such as what are the advantages of the economic system subject to Islamic principles and how they can be effectively used are contained in the article. This study allows us to see the current state of Islamic banking in our country and evaluate the shortcomings of the system. It was discussed whether the legislation of the Republic of Azerbaijan is suitable for the application of this system, and the necessity of making additions and changes. Also, in the article, the countries that apply the Islamic financial system in public administration were considered as a model. The positive results of the adoption of this field in the economy in the development of entrepreneurship, especially small and medium entrepreneurship, were discussed. The article mentions that with the development of Islamic banking, entrepreneurship will be supported and economic growth will be ensured indirectly. The presence of favorable conditions and potential for the application of this system has not been overlooked. It is also noted that the future of Islamic finance depends not only on the country's political leaders, but mainly on the entire population. After the global crisis, the interest in this field has clearly increased. The pace of innovation and development of Islamic finance in the last ten years proves that this field is the center of attention of the whole world. Taking into account the mentioned facts, the role of this system in the development of SMEs was evaluated.

Key Words: *Islamic Finance, Small and Medium Entrepreneurship, İnterest-Free Banking, Islamic Banking.*

Giriş

Bank fəaliyyətləri güvən və inam üzərində qurulduğu üçün ən qədim zamanlardan bu işlərlə məbədlər, kilsələr və sair məşğul olmuşdur. Zamanla bu münasibətlərin genişlənməsi və dövlətlər arası sferada işlənməsi, bank fəaliyyətinin Şərq müsəlman ölkələrinə də gəlib çıxmasına şərait yaratmışdır. Lakin islam dinində faiz və sələmin qəti şəkildə qadağan

* Bakı Avrasiya Universiteti, babayeva.aiwe@gmail.com.

DOI :10.30546/100981.1.2024.0164

edilməsi bu fəaliyyət növünün hərəkətini məhdudlaşdırmışdır. Belə olan halda bank sisteminin faizsiz əməliyyatlar üzərində qurulması ilə bağlı fikirlər formalaşmağa başladı. Tarix boyu insanlar üzləşdikləri problemləri aradan qaldırmaq və həll yolları tapmaq məqsədi ilə müxtəlif nəzəriyyələr irəli sürmüşlər. Mövcud qurumların və fikir axınlarının problemlərin həllində aciz qalması yeni nəzəriyyələrin, fikirlərin ortaya çıxmasını labüd etmişdir. Buna görə də, bank fəaliyyətinin tətbiqini mümkün etmək məqsədi ilə yeni islami çərçivələri nəzərə alan fikirlər meydana gəlməyə başladı. Burada əsas məqsəd İslam dininin ideologiyasının qorunması, əmr və qadağalara riayət olunması, islam prinsipləri ilə işləyən iqtisadi sistemin formalaşdırılmasıdır.

İslam bankçılığı dedikdə bank əməliyyatlarının şəriət qanunları əsasında tənzimləndiyi sistem başa düşülür. Onu klassik, ənənəvi kommersiya banklarından fərqləndirən əsas xüsusiyyət faizin qəti şəkildə qadağan edilməsidir. Faizsiz bankçılığın tarixi hələ eramızdan əvvəlki dövrlərə, Hammurapi hakimiyyəti illərinə qədər gedib çıxır. İslam iqtisadiyyatı anlayışının elmə gətirilməsi hindli alim M.A.Gilanin adı ilə bağlıdır. O özünün "İslam iqtisadiyyatı" adlı kitabında bu modeli ideal iqtisadi sistem kimi qiymətləndirmişdir. Məhz bu kitabın nəşrindən bir neçə il sonra ilk islami maliyyə qurumları, strukturları yaranmağa başlamışdır. (Abdullayeva, 2015: 26)

İslam bankçılığının, habelə faizsiz bankçılığın səmərəli tətbiqinə nail olmaq üçün ilk növbədə islami prinsiplərə, əmrlərə, müsəlman cəmiyyətlərinin həyat və yaşam standartlarına bələd olmaq tələb olunur. Bütün bunları mənimsəmədən islami bankçılığın tam mənası ilə başa düşülməsi və sistemdən gözlənilən faydanın alınması qeyri-mümkündür. Mahiyyət etibarı ilə İslam dini sahibkarlıq fəaliyyətini halal qazanc və ticarət üzərindən aparılmasını öz müqəddəs kitabı və göndərmiş olduğu Peyğəmbəri (s.a.s) vasitəsi ilə bildirmişdir. İslam bankçılıq sistemi möminlərə, inananlara öz vəsaitləri hesabına investisiya yatırımları etmək, müxtəlif maliyyə imkanlarından istifadə etmək üçün halal şərait formalaşdırılmasına xidmət edir. İslam bankçılığının başlıca məqsədi odur ki, ədalətli iqtisadi münasibətlər qurulsun, heç kimin haqqı əzilmədən halal yolla gəlir əldə etmək mümkün olsun.

Son illərdə İslam bankları şəriət qanunlarına uyğun məhsullar təqdim etməklə bu iqtisadi ehtiyacı ödəməyə çalışıblar. Bu cür məhsullar heç kəsin başqasının zərərindən mənfəət götürməməsi və bununla da ribanı (faiz) haram etməsi fəlsəfəsi ətrafında qurulmuşdur. Aktivlərdən gəlir əldə etmək hüququ gəlirin yaradılması ilə bağlı riski daşıyan bir şəxsdə olmalıdır. Əslində, bəzən müsəlmanlar üçün riba, donuz əti yemək, spirtli içki içmək və ya zinadan daha böyük günah hesab olunur (İslamın müqəddəs mətni Sünen ibn Macəyə görə).

Adi bankçılıqda əmanətçilər bankın aktivlər üzrə nə qazana bilməsindən asılı olmayaraq, müəyyən edilmiş gəlir dərəcəsini əldə etmək üçün aktivlərini bölüşdürərək riski banka ötürürlər. Ənənəvi banklardan istifadə edən borcalanlar riski özləri saxlayırlar, çünki onlar layihənin uğurundan asılı olmayaraq həm prinsip, həm də faizləri geri ödəməli olurlar. İslam bankları hər iki növ müştərilərə - əmanətçilərə və borcalanlara münasibətdə fərqlənir. İnvestorlar həm riski, həm də gəliri İslam bankları ilə bölüşürlər. Hesabın qaytarılması zəmanətli deyil, performansdan asılıdır və çox vaxt zəmanətsiz hədiyyə olan Hibah vasitəsilə ödənilir. İslam maliyyəsi, riskin ötürülməsini asanlaşdıran, əsasən borc əsaslı ənənəvi maliyyə ilə ziddiyyət təşkil edən aktiv əsaslı model vasitəsilə riskin bölüşdürülməsini vurğulayır.

İslam bankları ilə adi banklar arasındakı digər əsas fərq ondan ibarətdir ki, İslam institutları 2007-08-ci il maliyyə böhranı zamanı ənənəvi banklara mənfi təsir göstərən zəhərli aktivlərə4, törəmə alətlərə, adi maliyyə institutunun qiymətli kağızlarına və ya digər oxşar alətlərə investisiya qoyulmasına icazə vermir. Bunlar sərmayələr yersiz qumar və pulun hərəkəti ilə bağlı spekulyasiya etməklə gəlir əldə etmək hesab edilir, şəriət qanunlarında da qadağandır. Bu fərqli təcrübələrin nəticəsi olaraq, İslam bankları daha yüksək kapital adekvatlığı əmsallarına malikdir, daha az leveredliyə malikdir (kapitalın aktivlərə nisbəti daha

yüksəkdir), daha kiçik investisiya portfelinə malikdir və topdansatış depozitlərə daha az etibar edir (Shelton, 2020: 11).

1. Analiz

Ötən əsrin ikinci yarısında islami qaydalar əsasında fəaliyyət göstərən müəssisələrin yarandığı ilk zamanlarda yerinə yetirilən əməliyyatlar əsasən 3 qisim idi : əmanət formasındakı hesablar, sosial-ictimai xarakterli xeyriyyə hesabları, habelə zəkat və mənfəət və zərərdə ortaqlıq prinsiplərinə əsaslanan sərmayə. Əlbəttə, sektor inkişaf etdikcə həyata keçrilən əməliyyatların da dairəsi genişlənmişdir. Qlobal maliyyə sistemində əhəmiyyətli mərkəzlərdən birinə çevrilən islami banklar öz istehlakçılarına aşağıdakı əməliyyatları təklif edir:

1. Cari hesablar – standart kommersiya banklarında olduğu kimi təşkil olunur. Bu hesab üzrə faizlər hesablanmır və müştəri istədiyi zaman əmanətin tam məbləğini geri götürə bilər.Hər hansı vaxt limiti təyin edilmir.
2. Əmanət hesablar – müştəri üçün gəlir nəzərdə tutulmur. Yalnız istisna hallarda bank idarəçiliyi əmanətlərin cəlb edilməsi məqsədi ilə gəlirdən bir hissəni ayıra bilir. Bu hesab növündə də vəsait məbləği müddətsiz olaraq verilir. Bank əmanətçi hesablar vasitəsi ilə toplanmış vəsait məbləğlərini adətən az riskli proyektlərə yönəldir, belə olan halda bankla müştəri arasında qarşılıqlı razılıq üçün müqavilə imzalanır.
3. Son hesab növü sərmayə hesabıdır – Burada vəsaitin sahibi bankla ortaqlıq təşkil edir və fəaliyyətin nəticəsində əldə olunan mənfəət və zərər tərəflər arasında müqavilənin şərtləri əsasında bölüşdürülür. Bu profit/loss sharing sxemi adlandırılır. (Məmmədov, 2017: 187)

Faizsiz maliyyə sisteminin əsas prinsipləri riskin tərəflər arasında bölgüsü, razılaşma və müqavilə şərtlərinə əməl edilməsi, qeyri-müəyyənliyə yol verilməməsi, sosial ədalətliliyin gözlənilməsi, pulun sadəcə mübadilə vasitəsi kimi istifadəsi, islam dininin fiqhi cəhətdən qadağan etdiyi fəaliyyət növləri üzrə əməliyyat aparılmamasını ehtiva edir. Bu faktorların hər biri nəticə etibarilə sahibkarlıq fəaliyyətini stimullaşdıracaq növdədir.

İslam bank qanunlarına əsasən, sahibkarlıq müəssisələrinin maliyyə təminatının sərmayə hesabına təmin edilməsi qanunidir. Lakin bu maliyyələşdirmə əvvəlcədən hesablanmış faiz məbləği güdməməlidir. İkincisi, investisiyaların real kapitala yönləndirilməsi qəbuledilən dir, amma bu kapital üzərindən faiz gəliri təmin edilməməlidir. Ənənəvi kommersiya banklarında üç istiqamətdə əməliyyatdan faiz tutulur : 1. əsas faiz məbləği, 2. risklər üzrə faiz məbləği və 3. inzibati xərclər üzrə faiz məbləği. Bunlardan yalnız üçüncüsü islami banklar tərəfindən qəbul edilir. (Esen, Koç, Çakır, 2010: 41) Faizsiz bankçılığın iki əsas termini vardır ki, bunlar mudaraba və muşarakadır. Mudaraba ərəb sözü olan "darb" kəlməsindən gəlmişdir ki, bu da termin olaraq "bir tərəfin əməyi və dgiər tərəfin sərmayə yatırımı hesabına yaranan ortaqlıq" anlayışının ifadəsidir. Mudarabanın məntiqinə görə, çox sayda insan vardır ki, əlində sərmayəsi olmasına rəğmən iqtisadi bilik və bacarıqlara, təcrübəyə sahib deyillər. Digər tərəfdən bir qrup insan da vardır ki, əksinə bəlli bir ideya, proyekt, biznes plana, habelə iqtisadi bilik və bacarıqlara sahib olduğu halda yetərli sərmayəyə malik deyildir. Belə olan halda faizsiz əməliyyatlar aparan islami banklar bu iki tərəfin ortaqlığını təmin edən qurum kimi çıxış edir. Birinci tərəf hesabına banka yatırılan vəsaitlər, ikinci tərəfin sərmayəsi kimi çıxış edir. Onu da qeyd etmək lazımdır ki, bu münasibətdə sərmayə yatırımından əldə olunacaq məbləğ əvvəlcədən müəyyənəşdirilə bilmir. Belə bir sistemin qurulması kiçik və orta sahibkarlar üçün əvəzsiz fürsət deməkdir. Məlumdur ki, kiçik və orta müəssisələrin yaranması üçün tələb olunan ilkin kapital məbləği iri müəssisələrə nisbətdə olduqca aşağıdır, digər tərəfdən bu müəssisələr yatırımın yeri dönüşünü qısa zaman kəsiyində təmin edə bilirlər. Mudaraba əməliyyatları hesabına kiçik və orta sahibkarlıq müəssisələrinin fəaliyyəti stimullaşdırıla bilər. Çünki hazırda fəaliyyət göstərən

kommersiya banklarının biznes kredit faizləri ürəkaçan olmadığı kimi, şərtlər də əlverişli deyil. Onu da qeyd edək ki, bu əməliyyatların nəticəsində əgər mənfəət yox zərər edilərsə, bütün zərər bank hesabına təmin olunur. Müasir kommersiya bankları isə fəaliyyətin nəticəsinin mənfəət yaxud zərər olmasından asılı olmayaraq, həm verilmiş vəsaitin tamamını, həm də faizini geri tələb edir.

Muşaraka termini ərəb köklü olub, ortaqlıq mənasını ifadə edir. Burada ortaqlıq dedikdə həm idarəçilikdə, həm də sərmayədə şəriklik nəzərdə tutulur. Əlbəttə ki, riskin tərəflər arasında bölünməsi məsələsi aydındır. Bu zaman mənfəətin bölgüsü ortaqlıq müqaviləsinin şərtlərinə görə, zərərin bölgüsü isə tərəflərin sərmayədəki payına görə müəyyən edilir.



Sxem 1. İslam Bank Modelində partnyorla müqavilə formaları

Sxemdə faizsiz əməliyyatlar daxilində qarşı tərəflə bağlanan müqavilə formaları qeyd edilmişdir. Muşarakat o müqavilələrdir ki, tərəfdaşlıq xarakteri daşıyır.Belə olan halda bankla sahibkar işin şərikləri kimi çıxış edir. Tabarrut xeyriyyə müqavilələri, muadavat isə cari hesabların ödənişləri ilə bağlı müqaviələləri ehtiva edir.

İslam bankçılıq sistemi möminlərə, inananlara öz vəsaitləri hesabına investisiya yatırımları etmək, müxtəlif maliyyə imkanlarından istifadə etmək üçün halal şərait formalaşdırılmasına xidmət edir. İslam bankçılığının başlıca məqsədi odur ki, ədalətli iqtisadi münasibətlər qurulsun, keç kimin haqqı tapdalanmadan halal yolla gəlir əldə etmək mümkün olsun.İslam bankçılığı yatırımların yalnız real sektora yönəldilməsini tələb edir. Burda əsas məsələ ondan ibarətdir ki, real olmayan sektora əmanətlərin yönəldilməsi, veksel, repo kimi sahələrdə faizlə qiymətləndirilməsi tədricən əmanətçiləri ətalətə sürükləyir, digər tərəfdən də sahibkarların istehsala olan marağını və istəyini aşağı salır. Belə bir şəraitdə istehsal deyil,borc üzərində qurulmuş bir sistem ortaya çıxır. Nəticədə əhalinin çox kiçik bir qismi rifah halını yaxşılaşdırdığı halda, geri qalan böyük insan kütlələri yoxsulluq içərisində yaşamağa davam edir. İslam prinsipləri ilə fəaliyyət göstərən banklar spekulyasiyalara yatırım etmədiyindən və ancaq real aktivlərlə işlədiyindən böhranın dağıdıcı təsirlərini də azaltmış olur. İslami banklar kommersiya banklarından fərqli olaraq borc verən tərəf kimi deyil əksinə fəaliyyət ortağı kimi çıxış edirlər. Bu da faizlərin qeyri-müəyyənliyindən, yüksək faiz dərəcələrindən, girov məsələlərinin ağırlığından qaçan iri, kiçik və orta sahibkarlar üçün yaxşı çıxış yolu kimi görünür.

2. Dünya Təcrübəsində Islam Bankçılıq Sisteminin Qurulması Və Sahibkarlıq Üzərinə Təsirləri

Əlbəttə, məlum olduğu kimi, islam maliyyə sistemini tətbiq edən ölkələrin böyük bir qismi müsəlman cəmiyyətlərinə malik ölkələrdir. Lakin bank əməliyyatlarının islamlaşdırılması və şəriət qanunlarına tabe edilməsini ilk dəfə ötən əsrin 80-90-cı illərində İranda inkişaf etməyə başlamışdır. Hal-hazırda bu ölkədə bank xidmətlərinin yüz faizi də islami qaydalara tabe edilmişdir. Digər ölkələr sırasına SƏ, BƏƏ, Malayziya, Qətər, Küveyt, Türkiyə və sair də aid edilə bilər. Bir sıra inkişaf etmiş Avropa ölkələrində də islami banklar fəaliyyət göstərsə də, bu müəssisələr heç də islam ruhunun tətbiqini həyata keçirmirlər.

90-cı illərin sonlarından İran və Pakistan kimi bir sıra müüsalman ölkələrində maliyyə kredit sisteminin kütləvi şəkildə islamlaşdırılmasına başlanıldı. Bunun ilkin təsirlərini sahibkarlıq fəaliyyəti üzərindən araşdıra bilərik. 1999-cu ildə Pakistan Ali Məhkəməsi riba (faizin islami termini) üzərindən fəaliyyət göstərilməsini islam dininin əxlaq normalarına zidd hesab etdiyindən hökümət qarşısında belə bir tələb irəli sürdü ki, 2001-ci ilə qədər bütün maliyyə kredit və digər iqtisadi münasibətlərin tam islamlaşdırılmasına nail olunsun. (Abdullayeva, 2015: 8) Qısa zaman kəsiyində ölkənin iqtisadi sistemində köklü dəyişikliklər edilməsi, bank təcrübəsində yeni prinsiplərə keçilməsi sahibkarlıq fəaliyyətinə də təsirsiz ötüşmədi. Bu qərar ilk növbədə bankların depozit və investisiya fəaliyyətlərini zəiflətdi. Həmçinin kiçik və orta sahibkarlıq sektoru, xüsusilə kiçik firmalar, fərdi sahibkarlar banklarla ehtiyatla münasibət qururdular, çünki onlar üçün bankdan cəlb olunmuş maliyyə ehtiyatlarının faktiki dəyəri əhəmiyyətli dərəcədə artmağa başlamışdır. Bank sektorunda faizin ləğv edilməsi zamanla bir sıra mənfi nəticələri də doğurdu desək yanılmarıq. Belə ki, rəsmi şəkildə faiz əməliyyatlarının qadağan edilməsi sələmçilik formasında çıxış edən qeyri-rəsmi borc bazarında və paraboktlarda kreditin qiymətinin artmasına şərait yaratdı. Kiçik və orta sahibarlıq müəssisələrinin davamlı borcalma ehtiyacları islam maliyyəsinə paralel qara maliyyə bazarlarının genişlənməsinə səbəb olması qaçılmazdır. Ölkənin iqtisadi strukturlarında islamlaşdırılmanın aparılması və bank sektorunda həyata keçirilən islahatlar tədricən maliyyə kredit münasibətlərində dövlətin mövqeyini möhkəmləndirməyə xidmət edir. Bu isə xüsusilə iri sahibkarlarda və investorlarda narahatlıq doğurur. İslam iqtisadiyyatının əsas tələblərindən biri olan aydınlıq və aşkarlığın təmin olunması da sahibkarlar tərəfindən birmənalı qarşılanmır. Belə ki, çox vaxt sahibkarlar, biznesmenlər və investorlar bank qarşısında real aktivlərlə və investisiya layihəsinin həyata keçirilməsiylə əldə olunan mənfəətin tam həcmi barədə informasiya verməkdən qaçırlar. İslam maliyyəsi isə bu tip halların qəti əleyhinədir və fəaliyyətdə tam aşkarlığın təmin olunmasını tələb edir.

3. Ölkəmizin İqtisadiyyatında Faizsiz Bankçılığın Mövcud Problemləri Və İnkişaf Istiqamətləri

Əhalisinin böyük bir qismi islam dini inancına sahib olan bütün digər post-sosialist ölkələrdə olduğu kimi Azərbaycanın da uzun müddətli dövrdə islam dünyası ilə əlaqəsi yox dərəcəsində olmuşdur. Buna səbəb Sovet birliyinin dini inanclara amansız yanaşması və idarəçilikdə materialist ideologiyaya əsaslanması idi. Həmin dövrlərdə islam maliyyəsinin dünya iqtisadiyyatında yerinin əhəmiyyətli dərəcədə olmadığı da həqiqətdir. 90-cı illərin əvvəllərində ölkəmizin müstəqillik əldə etməsi, "Əsrin müqaviləsi" hesabına dünya iqtisadi sisteminə inteqrasiya etməsi ilə bir sıra beynəlxalq təşkilatlara üzv olmasına şərait yaratmışdır. İslam İnkişaf Bankı da bunlardan biridir. Təəssüf ki, MDB ölkələrində islam iqtisadiyyatı inkişaf etməmişdir. Hal-hazırda Azərbaycan, Qırğızıstan və Qazaxıstanda islami prinsiplərlə fəaliyyət göstərən az saylı strukturlar vardır. Bunun əsas səbəbi islam maliyyəsi ilə bağlı olduqca zəif məlumatlılıq qeyd edilə bilər. Ölkəmizdə yeni eranın başlandığı dövrlərdən tətbiq olunmağa çalışılır, ancaq islam bankçılığı ayrı-ayrı filiallarla təmsil olunur. Ölkəmizin İslam İnkişaf Bankına üzv olması bu prosesi sürətləndirmişdir. Birlikdə bir sıra layihələrə imza atılmışdır. İslam İnkişaf Bankının nəznində fəaliyyət göstərən İslam Təlim və Tədqiqat İnstitutunun dəstəyi ilə bir sıra təhsil ocaqlarında, universitetlərdə müxtəlif tədbirlər təşkil olunur, bu sahədə maraqlı olan qrupların xaricdəki tədbirlərdə, seminarlarda iştirakı təmin edilir. Bu sahədə ən böyük problemlərdən biri olan mütəxəssis çatışmazlığının aradan qaldırılması üçün Bankın Texniki Əməkdaşlıq Ofisi ixtisaslı kadrların hazırlanması məqsədi ilə həm ölkəmizdə, həm də xaricdə təlimlər, seminarlar təşkil edir. Həmçinin bütün bu proseslərin maliyyə təminatını da öz üzərinə götürür. Əsasən istehsalın qeyri-xammal sektoruna investisiya cəlbediciliyinin artırılması, qeyri-neft sektoruna investisiyaların yatırılması, investisiya şəbəkəsinin genişləndirilməsi məsələləri üzrə birgə layihələr işlənib

hazırlanır. İslam İnkişaf Bankı Azərbaycanda fəaliyyət göstərən yeddi kommersiya bankına öz dəstəyini göstərmişdir. Bunlardan Turanbank, Beynəlxalq Bank, Əmrahbank faizsiz əməliyyatların tətbiqini ilk olaraq həyata keçirənlər sırasındadır. Hazırda digərlərinə nisbətdə Azərbaycan Beynəlxalq Bankın bu istiqamətdəki fəaliyyəti daha genişdir.Bank 2004-cü ildən başlayaraq fəaliyyətinin bir neçə istiqamətini faizsiz əməliyyatlara yönəltmişdir. 2011-ci ildə islam bankçılığı üzrə işçi qrupunu, 2012-ci ildə isə İslam Bankçılığı Departamentini təşkil etmişlər.(Fərzəliyeva, 2015: 58) Hazırda departament həm xarici İslam maliyyə təşkilatlarından, həm də daxili bazardan indeksli depozit vasitəsilə vəsaitlərin cəlb edilməsini, eləcə də vəsaitlərin infrastruktur, ticarət və digər sahələr üzrə layihələri İslam bankçılığı prinsipləri əsasında maliyyələşdirir. Ölkəmizin 1999-cu ildən etibarən Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasına üzvdür. Təşkilat fəaliyyəti daxilində yerli banklarla sıx əməkdaşlıq etməkdədir. Məqsəd özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafına dəstək verməkdir. Bu istiqamətdə icarə, icarə summa əl-bay (yəni ilkin formada icarə, sonra alış) və müddətli satış əməliyyatlarının yerli banklar hesabına tətbiqinə çalışılır. (Hümbətov, 2009: 80) Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirləri sistemli və ardıcıl olaraq davam etdirilir: "Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq edilir. Ötən dövr ərzində sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayı son 15 il ərzində 4,3 dəfə artıb, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 80 faizi, məşğulluqda payı isə 75 faizi ötüb" (Bayramlı, 2018: 8).

Ölkəmizin iqtisadiyyatında islam bankçılığının tətbiqi üçün geniş imkanlar vardır. Əsas məsələ lazımi məlumatlandırılmanın həyata keçirilməsi, bu sahədə islahatların edilməsi, ölkəmizin bank qanunvericiliyinin islami banking sisteminə uyğunlaşdırılması tələb olunur. İslam bankçılığının təməl anlayışı bankla istehlakçının ortaq kimi qiymətləndirilməsidir. Lakin bizim qanunvericiliyimizin tələblərinə görə banklar ticarət fəaliyyəti ilə məşğul ola bilməzlər. İslami banklar isə bir növ istehlakçının ticarət ortağı kimi çıxış edir. Həmçinin lizing münasibətlərində də bank müəyyən məhsulları satın alaraq lizing müqaviləsi ilə qarşı tərəfin ixtiyarına verir. Hər iki hal ticarət kimi qiymətləndirildiyindən həyata keçirilməsi ölkə qanunvericiliyinin qərarına zidd hesab olunur. Məlumdur ki, ölkədə iqtisadi artım nail olmanın əsas istiqamətlərindən biri xarici investisiya axınının stimullaşdırılması ilədir. Təşəkkül tapmış islami bankçılıq sisteminin qurulması ilə bir sıra ərəb ölkələrindən, habelə Pakistan, Malayziya, Türkiyə kimi ölkələrdən xarici investisiya axını stimullaşdırılacaqdır. İnvestisiyalar sahəsindəki önəmli addımlardan biri Azərbaycan İnvestisiya Şirkəti ilə Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasının əməkdaşlığı hesabına 2008-ci ildə yaradılan Xəzər Beynəlxalq İnvestisiya Şirkəti qeyd edilə bilər. Şirkətin səhmlərinin dörddə üç hissəsi Korporasiyanın, dörddə biri isə İnvestisiya Şirkətinin payına düşür. Onun yaradılmasında başlıca məqsəd qeyri-neft sektoruna yerli və xarici investistiyaların cəlb olunması ilə ölkənin ixrac potensialının gücləndirməkdir.

Nəticə

Tədqiqatın aparılması hesabına müəyyən olunmuşdur ki, hazırda ölkəmizin iqtisadiyyatında islam maliyyə sisteminin tətbiqi, faizsiz bankçlığın inkişaf etdirilməsi potensialı böyükdür. Mövcud vəziyyətin təhlili sistemin ölkəmizdəki inkişafına əngəl olan bir sıra amillərin olduğunu aşkar etmişdir :

- Banklar haqqında Azərbaycan Respublikasının qanunu - bankların ticarət fəaliyyətinin məhdudlaşdırılması başlıca əngəl kimi qeyd edilə bilər.

- İqtisadi subyektlərin, sahibkarların və əhalinin bu mövzuda olduqca az məlumatlı olması.
- İslam maliyyəsi üzrə ixtisaslaşmış kadrların və mütəxəssislərin yox dərəcəsində az olması. Ali təhsil müəssisələrində islam maliyyəsi, iqtisadiyyatı kimi fənlər ümumiyyətlə tədris olunmur. Bu isə kəskin kadr çatışmazlığını qaçınılmaz edir.

Qeyd edim ki, islam maliyyə sisteminin sahibkarlıq üzərindəki müsbət təsirləri inkişaf etmiş ölkələrin təcrübəsində də təstiq olunmuşdur. Dünyanın islami bankçılıq üzrə üç əsas mərkəzindən biri məhz Londondur. Ölkəmizin əhalisinin əsas hissəsinin müsəlmanlardan təşkil olunması, irili xırdalı çoxlu sayda bankın fəaliyyət göstərməsi, kredit faizlərinin və şərtlərinin əlverişli olmaması faizsiz bank əməliyyatlarının həm istehlakçılar, həm də sahibkarlar tərəfindən müsbət qarşılanacağına bir növ zəmanət verir. Sonda onu da qeyd etmək istərdim ki, 2009-cu ildə məhz Azərbaycan "İslam mədəniyyətinin paytaxtı" seçilmişdir.Buna görə də, islam maliyyəsinin mənimsənilməsi həm strateji, həm də sosial-iqtisadi cəhətdən ölkəmizin islam dünyası ölkələri ilə əlaqələrini genişləndirməyə şərait yaradacaqdır.

ƏDƏBİYYAT

Abdullayeva, Aysel (2015) "İslam bank modeli inkişafında yeni meyillər" Azərbaycan Dövlət İqtisad Universiteti,dis, s.81

Bahar, Adnan A. (1999) "Islamic Finance and Investment: A New Era" Proceedings of the Second Harvard University Forum on Islamic Finance. Center for Middle Eastern Studies, Harvard University, 179-181.

Bayramlı, Nardar (2018) "Azərbaycanın regionlarında sahibkarlıq subyektlərinin maliyyə təminatı, "*Yeni Azərbaycan"*, s.8.

Esen, Adem, Koç, Turan, Çakır, Mustafa Y. (2010) "İslam ekonomisinin temelleri", İstanbul, Sabahattin Zaim Üniversitesi Yayın, s.270.

Fərzəliyeva, Lalə. (2015) "İslam maliyyə sistemində bankçılıq", Bakı Universitetinin Xəbərləri jurnalı, sayı 3, s. 49-60.

Hasan, Maher, Dridi, Jemma. (2010) "The Effects of the Global Crisis on Islamic and Conventional Banks: A Comparative Study" IMF Working Paper, p.21.

Hümbətov, Mahir (2009) "Azərbaycanda islam maliyyəsi və bankçılığı", Dövlət və Din jurnalı, sayı 9, s.77-81.

Məmmədov, Zahid (2017) "İslam bank modeli: dünya təcrübəsi və Azərbaycanda tətbiqi", Kooperasiya elmi-praktiki jurnalı, sayı 1, s.186-195.

Shelton, Cameron (2020) "The role of islamic banking in economic growth", CMC Senior Theses, Erişim: https://scholarship.claremont.edu/cgi/viewcontent.cgi?article=1618&context=cmc_theses